# Qarabağın və Şərqi Zəngəzurun zəngin turizm potensialı var

***Dövlət Turizm Agentliyi "Zəfər marşrutları" konsepsiyası çərçivəsində layihələr həyata keçirməyi planlaşdırır. Agentliyin rəsmisi deyib ki, hazırda biz digər dövlət qurumları ilə birlikdə azad olunmuş ərazilərdə turizmin bərpası və inkişaf etdirilməsi, bölgənin yeni turizm destinasiyasına çevrilməsi planları üzərində işləyirik. Qarabağın milli və təhlükəsiz turizm zonası kimi tanıdılmasına nail olmaq üçün uzunmüddətli strategiyanın hazırlanması və mərhələli şəkildə icrası zəruridir.***



Bütövlükdə Qarabağ regionu, xüsusilə də Şuşa, Hadrut, Füzuli, Suqovuşan, Şərqi Zəngəzur bölgələri turizmin müxtəlif növlərinin – eko, sağlamlıq, mədəni, təbiət, dağ və qış turizminin inkişafı üzrə zəngin resurslara, geniş imkanlara malikdir. Bu mənada Ağdamı qeyd etməyə xüsusi ehtiyac var. Bu şəhərin tamamilə yenidən qurulması, işgüzar turizm mərkəzinə çevrilməsi planı var. Alban məbədləri, Qarabağ xanlığının irsi, İpək yolu kimi mədəni turizm marşrutları buranın zəngin mədəni turizm potensialından xəbər verir.

Məhz qeyd olunan bu resurslara əsasən müvafiq turizm məhsullarının və "Zəfər marşrutları" konsepsiyası çərçivəsində layihələrin hazırlanması nəzərdə tutulur. İşğaldan azad edilmiş ərazilərə 2025-ci ilə qədər 1 milyona yaxın yerli və xarici turistin səfər edəcəyi planlaşdırılır.

Turizm marşrutlarının işlənib hazırlanmasına xüsusi əhəmiyyət verilir. Çünki indidən bu layihə icra olunmasa, Böyük Qayıdışdan sonra turizm sektorunun inkişafında müəyyən problemlər üzə çıxa bilər. Ona görə də bərpa prosesi ilə yanaşı, Qarabağ və Şərqi Zəngəzur bölgələrinin turizm potensialı da dərindən araşdırılmalı, turizm marşrutları, tarixi abidələr, cəlbedicilik cəhətdən zəngin, füsunkar, təkrarolunmaz təbiət məkanları diqqətlə nəzərdən keçirilməlidir.

Qarabağ və Şərqi Zəngəzurun turizm resurslarının qiymətləndirilməsi, turizm nümayiş obyektlərinin uçotunun aparılması, turizm potensialından səmərəli istifadə edilməsi, sağlamlıq, dağ və mədəni turizm resurslarının araşdırılması ilə bağlı "Turizm resurslarının qiymətləndirilməsi" adlı ilkin metodologiya sənədi hazırlanıb.

Bu sənədlə yanaşı, ölkə rəhbərinin tapşırığına əsasən, Qarabağ və Şərqi Zəngəzurda dayanıqlı turizmin və turizm klasterlərinin inkişafı, təşviqedici və tənzimləyici siyasət mexanizmlərinin işlənilməsi, innovativ texnologiya alətlərinin tətbiqi, turizm infrastrukturu, dövlət-özəl əməkdaşlıq və digər prioritet istiqamətlər əsasında hazırlanan Qarabağda Turizmin İnkişafı Strategiyası da mühüm əhəmiyyətə malikdir. Bu strategiyada turizm məhsullarının hazırlanmasının həmin ərazilərdə turizm infrastrukturunun qurulması ilə paralel aparılması nəzərdə tutulub. Başqa sözlə, Böyük Qayıdışı şərtləndirən yaşayış evlərinin tikintisi, infrastruktur layihələrinin reallaşdırılması ilə birgə turizm məhsullarının da yaradılması planlaşdırılıb.

Vətən müharibəsindən ötən müddətdə işğaldan azad edilən ərazilərdə Füzuli Beynəlxalq Hava Limanının tikintisi, Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun layihələndirilməsi və inşası, Kəlbəcər-Laçın istiqamətinə Göygöl rayonundan başlayaraq magistral yol salınmasının nəzərdə tutulması, eyni zamanda, Şuşanın füsunkar təbiət coğrafiyasında yerləşməsi, şəhərdəki tarixi-mədəni obyektlərin, "Xarıbülbül" və "Qarabağ" mehmanxanalarının ən son standartlara uyğun formada təmir edilərək istifadəyə verilməsi burada turizmin inkişafını şərtləndirəcək. Bu, Füzuli, Xocavənd və Şuşanın turistlər üçün əlçatan olmasına da mühüm təsir göstərəcək. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Tərtər rayonunun Suqovuşan qəsəbəsinə səfərləri zamanı burada Turizm İnkişaf Konsepsiyası əsasında yaradılacaq turizm kompleksinin təməlinin qoyulması da bunun bariz ifadəsidir.

Qeyd edildiyi kimi, turizmin ərazidə aparılan bərpa-quruculuq işləri ilə paralel gerçəkləşdirilməsi nəzərdə tutulur. Belə ki, burada ərazinin minalardan təmizlənməsi, dağıdılan tikililərin qalıqlarının yığışdırılması, abadlaşdırılması, çoxillik bitkilərin budanması ilə yanaşı, əraziyə uyğun bitkilər əkilməsi də planlaşdırılır.

Xatırladaq ki, axar-baxarlı ərazisi olan bu yerlərdə ötən əsrin 70-ci illərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Suqovuşan su anbarı tikilib. Otuz il düşmən əsarətində qalan bu torpaqlarda qurub-yaratmaq düşmənin yadına düşməyib. İndi isə Suqovuşanın dünyanın ən gözəl təbiət incilərindən birinə çevrilməsi qərara alınıb. Belə bir füsunkar zonada, Suqovuşan su anbarının ətrafında turizm kompleksinin yaradılmasına başlanıb, sahilboyu gəzinti cığırlarının salınması, oturacaqların, söhbətgahların quraşdırılması nəzərdə tutulub. Həmçinin burada turistlərə xidmət göstərəcək 40 nəqliyyat vasitəsi üçün avtodayanacağın, turizm məlumat mərkəzi və ictimai iaşə obyektinin yaradılması da planlaşdırılır. Təməlqoyma mərasimində Suqovuşan Turizm Kompleksində işlərin cari ilin sonunadək başa çatdırılacağı, növbəti mövsümdə turistlərə xidmət göstəriləcəyi də bildirilib.

Tezliklə Qarabağ və Şərqi Zəngəzur bölgələrinə yeni turizm marşrutları açılacağı, yerli və xarici turistlərin bu yerlərə səfərlərinin təşkil olunacağı şübhəsizdir.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***